# Qırğız Respublikasının Prezidenti ölkəmizə səfərə gəlir

## Azərbaycanla dost ölkə arasında imzalanacaq sənədlər yeni inkişaf mərhələsinin başlanğıcı olacaq

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycana rəsmi səfərə gəlir. Azərbaycan və Qırğız dövlət başçıları ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərini, həmçinin gələcək inkişaf və səmərəli əməkdaşlığın qurulması perspektivlərini müzakirə edəcəklər.**



Bundan başqa, Azərbaycanla dost ölkə arasında strateji əməkdaşlıq barədə bəyannamə, həmçinin Dövlətlərarası Şuranın yaradılması haqda memorandumun imzalanması gözlənilir.

Azərbaycanla Qırğız Respublikası münasibətlərinin qədim tarixi kökləri var. Azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə, tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa, xalqları dil və din eyniliyi də birləşdirir.

İnkaredilməz reallıqdır ki, son iki onillikdə Qırğız Respublkasının tarixində siyasi təlatümlər, tez-tez hakimiyyət dəyişikliyi, uzunmüddətli daxili gərginliklər baş verib. Azərbaycan isə müstəqil hüquqi dövlətdir və baş verən bu proseslərin hər zaman hüququn aliliyi prinsipi əsasında ədalətli həllini dəstəkləmişdir.

Ümumiyyətlə, iki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə yaradılıb. 2002-ci ildə Qırğız Respublikasının Azərbaycanda fəxri konsulluğu yaradılıb. 2005-ci ildə Azərbaycan Milli Məclisinin qərarı ilə Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu formalaşıb. 2007-ci ildə Azərbaycanın Qırğız Respublikasının paytaxtı Bişkekdə səfirliyi təsis edilib. 2008-ci ildə isə dost ölkənin Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Ölkələr arasında indiyədək 35-dən çox sənəd imzalanıb.

Lakin onu da qeyd etməliyik ki, 1997-ci ildə Azərbaycanla Qırğız Respublikası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması, ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlərin imzalanmasına, tərəflərin iqtisadi sahədə münasibətləri genişləndirmək niyyətlərinə baxmayaraq, iqtisadi münasibətlər elə də yüksək səviyyədə deyil. Bu ilin yanvar ayında İqtisadiyyat, Energetika və Kənd Təsərrüfatı nazirliklərinin nümayəndələri, həmçinin sahibkarlardan ibarət Azərbaycan nümayəndə heyəti Qırğız Respublikasına səfər edib. Səfər çərçivəsində dost ölkənin Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğu vurğulanıb, birgə layihələrin həyata keçirilməsi imkanları qeyd edilib. Görüşlərdə investisiya tərəfdaşlığının inkişafı barədə fikir mübadiləsi aparılıb və iqtisadi-ticarət əlaqələrinin inkişafı istiqamətləri müzakirə olunub.

Hər iki ölkə rəhbərləri və rəsmiləri arasında keçiriləcək görüşlər, imzalanacaq yeni sazişlər isə Azərbaycan və Qırğız Respublikası arasında siyasi-iqtisadi münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 19 aprel.- S.2.